Ədalət.- 2019.- 10 yanvar.- S. 8.

# "SARI GƏLİN"

## *Ağcabədidə ”doğulan” kitab*

**Bu günlərdə ağsaqqal həmkarlarımdan biri sözarası vurğuladıki, söz, ədəbiyyat dünyamıza yeni bir kitab da təşrif gətiribdi. Onun bu təqaimatı diqqətimi çəkdi və bir neçə gündən sonra Ağcabədidə ”doğulan” kitabla həmsöhbət olmaq imkanı qazandım...**




”Sarı gəlin” adlanan bu əsərlər kitabının müəllifi Yaqub Səmədlidi. Elə buradaca onu da əlavə edim ki, Yaqub Abbasqulu oğlu Səmədov Ağdam rayonunun Mərzili kəndində doğulb və hal-hazırda ADPU-nun Ağcabədi filialında müəllim kimi fəaliyyət göstərir. Tarix üzrə fəlsəfə doktoru, dosendir. ”Sarı gəlin” onun oxucularla ilk görüşdü. Kitaba ön söz yazmış tarix üzrə fəlsəfə doktoru Əlizadə Nəcəfov vurğulayır ki, ”insan ömrü mənalı bir kitaba bənzəyir. Onun səhifəlini hər ötən gün tarixə çevirir”. Bax, bu mənada ömrünün mənalı çağlarını yaşayan və könlünü sözə verən Yaqub Səmədli elmi fəaliyyəti ilə yanaşı, poeziyada da öz sözünü ifadə etməyə, öz imzasını tanıtmağa zaman-zaman cəhd edib və bu kitabı ilə sübut edir ki, onun cəhdləri ötəri həvəs olmayıbdı. Yəni doğulduğu yurda, vətənə, onun dağına, daşına, şəhidinə, əsgərinə, bir sözlə, içindən keçən bütün mövzulara o bir şair yanğısıyla diqqət ayırıb və yazıb ki:

**Bəzəkli-düzəkli söz demirəm mən,**
**Ağdam gözü idi Azərbaycanın.**
**Haqsızın zülmündn, əməllərindən,**
**Başına gör nələr gəlib Ağdamın.**

Və yaxud:

**Bu qaçqınlıq məni tamam üzübdü,**
**Gah ağlayıb, gah üzümə gülübdü.**
**Hicran odun sinəm üstə düzübdü,**
**Yurdsuzluğun çox ağırmış zülümü,**
**Qaytar məni keçmişimə, Mərzili.**

Yaqub Səmədli yazır ki, məndən haralı olduğumu soruşmayın. Bunun ardınca da üzünü Allaha tutub ondan bir Tanrı bəndəsi kimi rica edir ki, ”Qaytar məni, o dağlara, ay Allah”. Təbii ki, bütün bunlar da müəllifin səmimiyyətindən, onun yurd nisgilinə köklənən duyğularından xəbər verir.

**Bir oxucu olaraq tanəş olduğum ”Sarə gəlin” kitabı öz mövzu dairəsinə və müəllifin yazı üslubuna görə diqqətimi çəkdi. Ona görə bu kitabı oxuculara məndə təqdim etmək istəyi yarandı. Düşünürəm ki, oxucular, xüsusilə Qarabağ nisgiliylə yaşayanlar Yaqub Səmədlinin ”Sarı gəlin”ini arayıb axtaracaqlar.**

**Əbülfət MƏDƏTOĞLU**